DOI: https://doi.org/10.36719/2706-6185/36/51-55

**Lalə Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
lale_memmedova95@bk.ru

# İNKLÜZİV TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ SİNFİN EFFEKTİV İDARƏ EDİLMƏSİNDƏ MÜƏLLİMİN ROLU

**Xülasə**

Xüsusi məktəblərdə tədris-tərbiyə prosesinin təşkilində və korreksiya fəaliyyətində müəllimin rolu böyükdür. Korreksiyaedici təhsil müəssisələrində müəllim öz vəzifə və funksiyaları ilə kütləvi məktəbin müəllimlərindən fərqlənir. Müəllimin pedaqoji-peşə fəaliyyətinin çoxcəhətliliyi və çoxfunksionallığı özünü bir tərəfdən şagirdlərin təlim-tərbiyəsini dövlət təhsil siyasətinə və dövlətin verdiyi müvafiq tələblərə uyğun fəaliyyət göstərən bir dövlət qulluqçusu olmasında, ikinci tərəfdən uşağı şəxsiyyət kimi formalaşdırmaq və hərtərəfli inkişaf etdirmək məsələlərini həyata keçirən sosial işçi, digər tərəfdən isə psixi inkişaf, sensor, davranış, və s. çatışmazlıqları olan uşaqlarla iş aparan sosial pedaqoq, pedaqoq-defektoloq rolunda göstərir.

Xüsusi təhsil üzrə müəllimin funksiyalarına xüsusi diqqət və fəaliyyət tələb edən şagirdlərlə aparılan korreksiya, pedaqoji prosesi təşkil etmək və onu konkret məzmunla zənginləşdirmək daxildir. Müəllim öz şagirdləri və valideynləri arasında əməkdaşlığı və qarşılıqlı fəaliyyəti təmin edən ən mühüm həlqədir. Müəllim təlim-tərbiyə prosesində şagirdlərin inkişaf və davranış pozulmalarının korreksiya və profilaktika məsələlərinin həyata keçirilməsində fəal iştirakçı olmaqla bərabər, həm də onların yerinə yetirilməsi üçün əxlaqi, intellektual, fiziki və psixoloji hazırlığa malik olmalıdır. Korreksiyaedici təhsil müəssisələrində müəllim uşaqların inkişaf və davranışındakı mövcud və ya ola biləcək qüsurları aradan qaldırmağa, yaxud qarşısının alınmasına yönəldilmiş metod və üsulları seçir, təlim prosesində onlardan istifadə edir. Müəllim həmişə fəal, yaradıcı olmalı, mürəkkəb, psixo-fiziki inkişaf çatışmazlıqlı uşaqlar kimi bir kollektivə rəhbərlik edərək təlim-tərbiyə prosesində aparıcı rol oynamalıdır. Beləliklə də, korreksiyaedici müəssisələrdə çalışan müəllimlərin şəxsi və peşə keyfiyyətləri vəhdət təşkil edir.

***Açar sözlər:*** *xüsusi təhsil, müəllim, şagird, fəaliyyət, korreksiya işi*

**Lala Mammadova**
Azerbaijan State Pedagogical University
lale_memmedova95@bk.ru

# The importance of the teacher in effective classroom management in inclusive educational institutions

**Abstract**

In special schools, the role of the teacher in the organization of the teaching-educational process and correctional activities is great. In correctional educational institutions, teachers differ from mass school teachers in terms of their duties and functions. The multifaceted and multi-functionality of the teacher's pedagogical-professional activity is, on the one hand, the fact that he is a civil servant who works in accordance with the state education policy and the relevant requirements of the state, and on the other hand, he is a social worker who implements the issues of shaping and comprehensively developing the child as a personality, and on the other hand, and mental development, sensory, behavior, etc. he acts as a social pedagogue working with children with disabilities, a pedagogue-defectologist.

The functions of a special education teacher include organizing the correction-pedagogical process with students who require special attention and activity and enriching it with contextual content. The teacher is the most important link that ensures cooperation and interaction between his

students and parents. The teacher must be an active participant in the implementation of the correction and prevention of development and behavior disorders of students in the educational process, and must also have moral, intellectual, physical and psychological preparation for their implementation. In correctional educational institutions, the teacher chooses methods and techniques aimed at eliminating or preventing existing or possible defects in children's development and behavior, and uses them in the training process. A teacher should always be active, creative, leading a team such as children with complex, psycho-physical developmental deficits, and should play a leading role in the educational process. Thus, the personal and professional qualities of teachers working in correctional institutions are unified.

***Keywords:*** *special education, teacher, pupil, activity, correctional work*

## Giriş

Əlilliyi olan uşaq problem deyil, əksinə, uşağın təhsil ehtiyaclarına cavab vermədiyi üçün məktəb problem hesab edilir. İnklüziv təhsil müəllimin qarşısına daha məsuliyyətli vəzifə qoyur. O, sağlamlıq imkanları məhdud olan şagirdləri dəstəkləmək üçün düzgün yolu seçməli və onları cəmiyyətə yararlı vətəndaş kimi hazırlamağı bacarmalıdır. Müəllim sağlamlıq imkanları məhdud olan uşaqlara bir neçə istiqamətdə dəstək ola bilər (Rəfiyeva, 2020: 83):

1. Sosial.
2. Emosional.
3. Öz bacarıqlarına inam formalaşdırılması.
4. Sağlamlıq imkanı məhdud olan uşaqla digər uşaqlar arasında qarşılıqlı münasibətlərin yaxşılaşdırılması.

Sosial dəstəyin əsas məqsədi uşağın cəmiyyətdəki mövqeyini anlaması üçün ona yardım olunmasıdır. Bu prosesdə müəllimlərin psixoloqla və valideynlərlə birgə fəaliyyət göstərməsi çox vacibdir. Sağlamlıq imkanları məhdud olan şagirdlərin hər birinin emosional dəstəyə ehtiyacı daha çox olur. Çünki özünün başqalarından daha zəif olduğunu iddia edən təhsilalan daim özünə qapanır və ünsiyyət qurmaqda çətinlik çəkir. Müəllim belə vəziyyətlərdə şagirdlərə emosional dəstək göstərməli, onlarda yaranmış neqativ halları aradan qaldırmalıdır. Bundan başqa, müəllimlər tədris prosesi zamanı sağlamlıq imkanları məhdud olan təhsilalanlarda öyrənmə bacarıqlarına inam formalaşdırmalıdırlar. Bu cür inam formalaşmış şagirdlər artıq özlərini zəif hiss etmədiklərinə görə onlarda özünəinam formalaşacaq. Sağlamlıq imkanları məhdud olan şagirdlər üçün ən önəmli məsələ onlarda kommunikativ bacarıqların formalaşdırılmasıdır. Müəllim təkcə belə şagirdlərlə deyil, bütün siniflə kollektiv şəkildə iş aparmalıdır. Bu zaman ətrafdakıların sağlamlıq imkanları məhdud şagirdlərə olan münasibətini tənzimləmək də mühüm məsələdir. Çünki bu kateqoriyadan olan şagirdin özünü digərlərindən fərqli hiss etməməsi ilə yanaşı, başqalarının onun fərqli olmadığını düşünməsi də vacibdir (Qasımov, 2020: 26).

Xüsusi təhsil zamanı müəllim daim valideynlərlə əlaqədə olmalıdır. Çünki tədris prosesində yaradılmış dəstəkləyici mühitin evdə də davam etdirilməsi vacib şərtdir. Bu zaman təhsilverənlər valideynlərdən şagirdin ehtiyacları ilə bağlı daha geniş informasiya ala və tədris prosesində həmin informasiyadan yararlana bilərlər. Valideynlərlə təkcə qruplar şəklində deyil, məqsədyönlü şəkildə də fərdi iş aparılmalıdır. Müəllim valideynlərin psixologiyasında yaranan çatışmazlıqları aradan qaldırmağa dəstək olmalı və sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətdə özünə yer tutması üçün valideyn və ailə imkanından əlverişli şəkildə istifadə etməyi bacarmalıdır. Xüsusi təhsilin hərəkətverici qüvvəsi müəllimin şagirdlərə verdiyi dəstəkdir. Bu prosesdə müəllimin təcrübəsi ilə yanaşı, düzgün strategiyasının olması və onu reallaşdıra bilməsi inklüziv təhsilin effektiv tətbiqinin dayağı hesab oluna bilər. Uğurlu inteqrasiya olunmuş təhsil mühitinin yaradılması müəllimlərin, idarəçilərin və ailələrin cəlb olunduğu kompleks bir işdir. Bu baxımdan, xüsusi təhsil müəllimləri ilə ümumi təhsil müəllimləri daim birlikdə işləməli, müsbət şagird mədəniyyətini formalaşdırmaq və vahid tədris proqramını hazırlamaq üçün çalışmalıdırlar. Nəzərə almaq lazımdır ki, inklüziv siniflərdə sağlamlıq imkanları məhdud olan şagirdlərin keyfiyyətli təhsil almasını təmin etməkdə xüsusi təhsil müəllimləri əsas rola malikdirlər. Fərqli bacarıqlara sahib olan

şagirdlərin ehtiyacları xüsusi təhsil müəllimi və mütəxəssisin dəstəyi ilə təmin edilə bilən mühitdə həyata keçirilməlidir (Hüseynova, 2006: 112). İnklüzivliyin müsbət effekt göstərməsi üçün güclü öyrənmə imkanlarını təmin edən əlverişli mühit və təlim modelləri yaradılmalıdır. Həm xüsusi təhsil, həm də ümumi təhsil müəllimləri qarşılıqlı hörmətə, inklüziv təhsil fəlsəfəsinə qarşı açıq fikirlərə, eyni zamanda sağlamlıq imkanları məhdud uşaqların ehtiyaclarını ödəmək üçün güclü inzibati dəstəyə və biliklərə sahib olmalıdırlar. Xüsusi təhsil müəlliminin iştirakı bir sıra sahələrdə birləşmiş tədris mühitinin uğur qazanması üçün çox vacibdir (Ağayeva, 1999: 34).

**Tədris planının hazırlanması**

Xüsusi təhsil müəllimləri sağlamlıq imkanları məhdud olan uşaqların ehtiyaclarının nəzərə alınmasının təmin olunması məqsədilə inklüziv siniflər üçün dərs hazırlamağa kömək etməlidirlər. Müəllimlər bütün şagirdlər üçün əlçatan tədris planı hazırlamaq məqsədilə birlikdə işləyə və ya xüsusi təhsil müəllimi ümumi təhsil müəlliminin dərs planında dəyişiklik edə bilər. Xüsusi təhsil müəllimi sağlamlıq imkanları məhdud uşaqlar üçün vizual, manipulyasiya, mətn və texnologiya mənbələri daxil olmaqla, əlavə tədris materialları da hazırlamalı, təkbətək dərslərə nə vaxt ehtiyac ola biləcəyini müəyyənləşdirməlidir. Müəllimlər dərs hazırlayarkən şagirdlərin güclü, zəif tərəflərini, maraqlarını və ünsiyyət metodlarını araşdırmalıdırlar. Onların nailiyyətləri müvəffəqiyyət hədəfinə çatmaq üçün diqqətlə izlənilməlidir.

**Sinifdə təlimat**

Sağlamlıq imkanları məhdud uşaqlara əhatəli bir sinif otağı təşkil etmək üçün ümumi və xüsusi təhsil müəllimləri arasında geniş əməkdaşlıq tələb olunur. Xüsusi təhsil müəllimləri tez-tez sağlamlıq imkanları məhdud olan uşaqların yanında oturaraq onların inkişafını izləyir, hər hansı bir xüsusi təlimat və ya əlavə təlim materialları verirlər. Uşaqlar özünəməxsus ehtiyaclarına əsasən müxtəlif səviyyəli fərdi təlimat və yardım vasitəsilə daha yaxşı təlimə cəlb olunurlar. Xüsusi təhsil müəllimləri şagirdləri təkbətək dərslər və ya emosional fəaliyyət üçün sinifdən çıxara, inklüziv mühitin qorunmasına kömək məqsədilə qiymətləndirmə sənədlərində və qaydaların yerinə yetirilməsində ümumi təhsil müəlliminə kömək edə bilərlər. Daha çox əlaqə imkanları yaratmaq üçün dərsləri kiçik qruplara bölmək olar.

**Təlimin qiymətləndirilməsi**

İnklüziv siniflərdə xüsusi təhsil müəllimlərinin digər rolu şagirdlərin akademik hədəflərə nail olub olmadığını müəyyənləşdirmək üçün müntəzəm qiymətləndirmələr aparmaqdır. Çətinlik səviyyəsini müəyyən etmək üçün dərslər vaxtaşırı qiymətləndirilməlidir. Şagirdlər ümumi təhsil şəraitində özünəinam və müstəqillik hissi qazanmalı, eyni zamanda kifayət qədər dəstəkləndiyini hiss etməlidirlər. Xüsusi təhsil müəllimləri sağlamlıq imkanları məhdud uşaqların ailələri və digər müvafiq şəxslərin iştirakı ilə vaxtaşırı iclaslar təşkil edərək təhsilalanların planında düzəlişlərin edilməli olub olmadığını müəyyənləşdirməlidirlər.

**Şagird hüquqlarının müdafiəsi**

Xüsusi təhsil müəssisələri sağlamlıq imkanları məhdud olan təhsilalanların hüquqlarının müdafiəçisi kimi çıxış edir. Həmin hüquqlara inklüziv təhsilə təkcə müəllimlərin deyil, həm də məktəb rəhbərlərinin, digər işçilərin ən yaxşı şəkildə necə cəlb olunmasını təmin etmək və bu prosesin nə dərəcədə vacib olduğunu onlara anlatmaq daxildir. Peşə inkişaf fəaliyyətinin tələb edilməsi, xüsusən də ümumi təhsil müəllimlərindən inklüziv təcrübələrin daha yaxşı mənimsənilməsini asanlaşdıran proqramlar hazırlamağı tələb etmək və ya cəmiyyətin üzvlərinə inklüziv tədrisin müvəffəqiyyət dərəcələri barədə məlumat vermək də şagird hüquqlarının müdafiəsi hesab edilə bilər. Müəllim elmi-pedaqoji ədəbiyyatdan effektiv şəkildə istifadə edərək uşaqlarla aparılacaq korreksiya-kompensasiya işinin aşağıdakı müxtəlif formalarını planlaşdıra bilər. Müəllim tədris-tərbiyə prosesinin planlaşdırılmasında kompensasiyanın psixoloji və pedaqoji amillərini, onların korreksiya fəaliyyətində istifadə xüsusiyyətlərini nəzərə almalı, korreksiya məsələlərinin həlli zamanı uyğun metod və üsulları seçməyi və onlardan düzgün istifadə etməyi bacarmalıdır. Beləliklə də, korreksiyaedici müəssisələrdə çalışan müəllimlərin şəxsi və peşə keyfiyyətləri vəhdət təşkil edir. Beləliklə, korreksiyaedici təhsil müəssisələrində çalışan müəllimlərin şəxsi keyfiyyətlərinə verilən tələblər aşağıdakılardan ibarətdir:

- müəllim humanist olmalı, uşaqları sevməli, onlara kömək etməyə səy göstərməlidir;
- müəllim uşaqlara qarşı çox mehriban və dözümlü olmalı, öz şagirdlərinin qeyri-adi davranış formalarına ağılla reaksiya verməlidir;
- müəllim qeyri-adekvat situasiyaları ələ almağı, lazım gəldikdə tez və əsaslandırılmış qərar qəbul edərək onu praktikada tətbiq etməyi bacarmalıdır;
- müəllim ardıcıl və tələbkar olmalı, lakin öz fəaliyyətində qəddarlığa yol verməməlidir;
- müəllimdə yumor hissi, bəzi xoşagəlməz hadisələri yumşaltmaq, gərginliyi azaltmaq bacarığı olmalı, heç bir cəhdlə uşağı alçaldıcı hərəkətlərə yol verməməlidir (Ağayeva, 1999: 67).

**Müəllimin dərsə hazırlığı**

Xüsusi təhsil müəssisələrində müəllimin dərsə hazırlığı bir-biri ilə qarşılıqlı əlaqədə olan üç mərhələdən – diaqnostika, proqnozlaşdırma və planlaşdırma (M. İ. Maxmutov, P. İ. Pidkasistıy, Q.M. Dulnev, V. V. Voronkova) və ya iki həlqədən: dərs sisteminin planlaşdırılması və bu planlaşdırmanın hər bir dərs üçün konkretləşdirilməsindən ibarətdir. Müəllimin diaqnostik hazırlığı dərsin aparılmasında bütün vəziyyətlərin müəyyən edilməsini (ümumi dərs sistemində dərsin yeri, şagirdlərin imkanlarını, onların fəaliyyət motivləri, intellektual xüsusiyyətləri, tədris materialının xarakteri) nəzərdə tutur. Bu konkret şəraitdə müəllimin öz işinin nəticələrini öncədən görmək bacarığında özünü göstərir. Buna əsaslanaraq müəllim öz fəaliyyətinin strategiyasını müəyyənləşdirir, müəyyən olunmuş kəmiyyətdə və keyfiyyətdə pedaqoji imkanlarını dəyərləndirir. Başqa sözlə, proqnozlaşdırma gələcəkdə keçiriləcək dərsin müxtəlif variantlarını qiymətləndirməyə yönəldilir (Hüseynova, 2014: 23).

Proqnozlaşdırma və planlaşdırma şagirdlərin bilik həcmini, planlaşdırmanın növü və formasının seçilməsini müəyyənləşdirməyə imkan verir. Proqnozlaşdırmanın müasir texnologiyaları dərsin səmərəliliyinin kəmiyyət göstəricilərini üzə çıxarmağa imkan verir. Bu aşağıdakı qaydada olur: Dərsin məqsədi bilik, bacarıq və vərdişləri formalaşdırmaqdır. Planlaşdırma dərsin hazırlığının son mərhələsi hesab olunur. Həm ümumi, həm də xüsusi korreksiya təhsili sistemində planlaşdırmanın iki növü fərqləndirilir: mövzulara görə – təqvim tematik və gündəlik, dərs üzrə – plan konspekt.

Təqvim-tematik plan müəllim tərəfindən mövzu üzrə işdən öncə tərtib edilir və tematik planda həmin planlaşdırma növünün bütün komponentlərini əhatə edir. Dərsin vaxtı onun strukturu, öyrənilən materialın həcmi, dərsin ardıcıllığı və onun məzmunu isə konkret fənn üzrə tədris planı ilə müəyyənləşir. Dərsin məqsədi və vəzifələri təlim prosesinin ümumi pedaqoji və korreksiya yönəlişliyindən asılı olur. Dərsin təchizatı (cədvəl, şəkil, didaktik material) onun məzmunu, nəzərdə tutulmuş metodiki işi hesaba almaqla seçilir. Tematik planlaşdırma gündəlik dərsin planlaşdırılmasının əsasını təşkil edir, dərsin tipini, onun təsvir, məqsəd və vəzifələrini nəzərə almağı özündə əks etdirir (Qasımov, 2004: 94).

## Nəticə

Əlilliyin tibbi modeli fərdə köklənir, onu problemi olan insan kimi təsvir edir. Bu yanaşma şəxsin cəmiyyətdə fəal olmamasına şərait yaradan amilləri və ya maneələri nəzərə almır. Xüsusi təhsil kontekstində isə tibbi yanaşma əlilliyi olan uşaqların məktəbdə öyrənmək və səmərəli şəkildə iştirak etmək imkanlarını məhdudlaşdırır. Əlilliyə tibbi yanaşma insan hüquqlarına əsaslanan yanaşmanın dinamikliyini və kompleks xarakterini əks etdirmir, fərdə diaqnozu əsasında baxmağımıza gətirib çıxarır (Aksenova, Arkhipov, Belyakova, 2001: 136).

Nəticədə, uşaq əlilliyə görə damğalanır, maneələri aradan qaldırmaq və təhsil sistemində islahat aparmaq əvəzinə, bu, problem kimi qəbul olunur. Yalnız əlilliyi olan uşaqlar deyil, bir çox məktəblilər də tədris prosesində çətinliklərlə üzləşirlər. Təlimi yaxşılaşdırmaq üçün bu çətinliklər aradan qaldırılmalı, aparılan dəyişikliklər bütün uşaqlar üçün təlim şəraitinin yaxşılaşdırılmasına səbəb olmalıdır. Əlilliyi olan uşaqlarla ayrıca məşğul olmaq üçün mütəxəssislər cəlb etməkdənsə, məktəbdə dərs deyən müəllimlərin peşəkarlıq səriştəsi artırılmalıdır.

## Ədəbiyyat

1. Rəfiyeva, L., Məmmədova, M., Yusifova, E., Abbasova, S. (2020). Korreksiya işlərinin həyata keçirilməsi. Bakı, 144 s.
2. Qasımov, S. Ə., Talıbov, Y. (2000). Anomal uşaqların əlahiddə pedaqogikanın əsasları. Bakı, 198 s.
3. Hüseynova, N. T., Rüstəmova, L. H. (2006). Xüsusi pedaqogika. Bakı, 210 s.
4. Ağayeva, T. H. (1999). Ümumtəhsil məktəblərində loqopedik işin təşkili. Bakı: ADPU, 87 s.
5. Ağayeva, T. H., Əliyeva, S. M. (1999). Loqopediyanın nəzəri-praktik məsələləri. Bakı: Maarif, 190 s.
6. Hüseynova, N. T. (2014). Loqopedik atlas. Bakı, 115 s.
7. Qasımov, S. Ə., Kərimova, E. M. (2004). Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası. Bakı, 156 s.
8. Aksenova, L. I., Arkhipov, B. A., Belyakova, L. I. (2001). Spetsial'naya pedagogika. Moskva: Akademiya, 394 s.

Göndərilib: 13.05.2024 Qəbul edilib: 20.06.2024